# Region liderlərinin İlham Əliyevin mövqeyini dəstəkləməsi ədalətli addımdır



**30 ilə yaxındır ki, Azərbaycan əraziləri düşmən tapdağındadır. Amma dünya bizim bu problemimizin həlli üçün konkret addım atmır ki, atmır. 28 ildir ki, bu işğalın qarşısını almaq məqsədilə yaradılmış Minsk qrupu fəaliyyətdədir və həmin qrupun həmsədrlərinin "fəaliyyəti" turist gəzintilərindən başqa heç nəyə bənzəmir. Onların verdikləri bəyanatları ABŞ, Rusiya və Fransadan olan çoxsaylı ekspert, politoloq və turistlər də dilə gətiriblər. Amma torpaqlar hələ də işğaldadır. 26 ildir ki, beynəlxalq təşkilatların dəstəyi ilə Ermənistan – Azərbaycan cəbhəsində atəşkəs elan edilib. Amma bu illərin hər ayında erməni snayperləri əsgərlərimizi, terrorçular isə mülki şəxslərimizi qətlə yetirirlər.**

Bütün beynəlxalq təşkilatların qərar və qətnamələrində deyilir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Minsk qrupunun həmsədri olan ölkələrin dövlət başçıları da deyirlər ki, mövcud status-kvonun saxlanılması yolverilməzdir. Ancaq Ermənistan rəhbərliyi əridən-qabıqdan çıxır ki, status-kvo dəyişməsin. Amma zaman sübut etdi ki, bu vəziyyət uzun müddət davam edə bilməz. Çünki bu işğal amili dünyanın bir parçası olan Qafqazdakı tərəqqi və inkişafın qarşısında maneəyə, əngələ çevrilib.

Nəhayət, ermənilərin növbəti təxribatının qarşısını almaq üçün əks-hücum əməliyyatlarına qərar verən Azərbaycan dövləti, eyni zamanda, regiondakı status-kvonun dəyişdirilməsi üçün də kəsərli addımlar atmağa başladı. Yəni Azərbaycan rəhbərliyi bu qərarla həm BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi qətnamələrin icrasına kömək etmiş olur, həm Minsk qrupu həmsədrlərinin "status-kvo dəyişdirilməlidir" tezisini reallaşdırır, həm də ölkəmizin düşmən tapdağında olan ərazilərini işğalçılardan təmizləyir. Bütün bunlar günümüzün reallığıdır. Amma günümüzün reallıqları arasında başqa faktlar da vardır.

Bu faktlar qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Biz Azərbaycanın ərazi bütövlüyü bərpa edilənə qədər qardaşlarımızın yanında olacağıq" qətiyyətini dəfələrlə dilə gətirməsindən, Rusiya Prezidenti Vladimir Putinin "Azərbaycan və Ermənistan bizim yaxın qonşularımız və dost ölkələrimizdir. Biz onların daxili işlərinə heç zaman qarışmamışıq, indi də qarışmırıq" deməsindən, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin "Biz Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın mövqeyini dəstəkləyirik" bəyanatını verməsindən və Prezident Salome Zurabişvilinin Ermənistana silah daşıyan nəqliyyat vasitələrinin Gürcüstan ərazisindən keçməsinə icazə verməməsindən ibarətdir. Dövlət başçılarının bu qətiyyəti olduqca ədalətli mövqedir.

Bütün bunların isə bir adı var: Azərbaycanın yüksək səviyyəli diplomatik uğurları. Biz bu uğurlara görə dövlət başçımız, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarıq və onu daim dəstəkləyirik.

***İsa ƏHMƏDOV,***
***Zaqatala Rayon Ağsaqqallar Şurasının sədri***

Xalq qəzeti.- 2020.- 10 oktyabr.- S.9.